# Ümummilli lider yeni dövr Azərbaycan ədəbiyyatı haqqında

**Razim Məmmədov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: r_mamedli@mail.ru

**Annotasiya.** Azərbaycan ədəbiyyatının bütün dövrləri, bütün şəxsiyyət və hadisələri Ümummilli Liderimiz üçün eyni dərəcədə doğma və yaxın olmuş, eləcə də onların heç biri xüsusi diqqət və qayğıdan kənarda qalmamışdı. Heydər Əliyev Azərbaycan ədəbiyyatının bütün dövrlərini, bu dövrdə yaşayan ədiblərin yaradıcılığını diqqətlə izləmiş, onların əsərlərini öyrənmiş və qiymətləndirmişdi. Ulu Öndərin XIX əsr və XX əsrin əvvələrində yaşayıb-yaratmış M.Ş.Vazeh, A.Bakıxanov, Q.Zakir, X.Natəvan, M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, C.Məmmədquluzadə, N.Nərimanov, H.Cavid, Ə.Haqverdiyev və başqaları haqqında söylədiyi fikirlərdə klassiklərimizə milli təəssübkeşlik hissi aydın duyulur. Məqalədə dahi şəxsiyyətin ədəbi irsimizə bəslədiyi humanist münasibətdən minnətdarlıq hissi ilə qeyd edilir.
Heydər Əliyev bütün dövrlərdə yaşayan sənətkarların şəxsiyyətinə və bədii irsinə qayğı ilə yanaşdığı kimi XIX əsrdə yaşayıb yaratmış Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov və başqa görkəmli ədiblərin də himayədarı kimi çıxış etmiş, onların yubileylərinin keçirilməsi, adlarının əbədiləşdirilməsi, seçilmiş əsərlərin çap olunması və s. məsələlərdə öz köməyini əsirgəməmiş, əlindən gələn bütün yardımları etmişdir.
**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan ədəbiyyatı, Ümumilli lider, bədii irs, Azərbaycan klassikləri

**Məqalə tarixçəsi:** göndərilib – 14.09.2023; qəbul edilib – 29.09.2023

# National Leader about new period Azerbaijani literature

**Razim Mammadov**
Doctor of Philosophy in Philology
Azerbaijan State Pedagogical University
E-mail: r_mamedli@mail.ru

**Abstract.** All periods, personalities and events of Azerbaijani literature were equally native and close for our National Leader, as well as none of them was left out of special attention and care. Heydar Aliyev followed all periods of Azerbaijani literature, the creativity of writers lived in this period attentively and learned their works and evaluated. In the thoughts expressed by Heydar Aliyev on the classics who lived and created in the19th and the 20th century such as M.Sh. Vazeh, A.Bakikhanov, G.Zakir, Kh. Natavan, M.F. Akhundzade, S.A.Shirvani, H.Zardabi, J.Mammadguluzade, N.Narimanov, H.Javid, A.Hagverdiyev and others, the feeling of national bigotry towards them is demonstrated. In the article, the humanitarian attitude of the genius personality to our literary heritage is noted with a deep appreciation.
Heydar Aliyev treated with care about the personality and artistic heritage of masters lived during all periods. He talked as a guardian of writers such as Mirza Fatali Akhundov, Abbasgulu aga Bakikhanov, Gasim bey Zakir, Seyid Azim Shirvani, Khurshidbanu Natavan, Najaf bey Vezirov and others who lived in the 19th century; didn't spare his help in organizing their jubilees, perpetuating their names, publishing their selected works, and etc., and he did all the help he could.

**Keywords:** Heydar Aliyev, Azerbaijani literature, National Leader, literary heritage, classics of Azerbaijan

**Article history:** received – 14.09.2023; accepted − 29.09.2023

## Giriş / *Introduction*

Müstəqil Azərbaycan Respublikasının tərəqqisi, onun milli-mədəni intibahı xalqımızın əbədiyaşar oğlu, Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil dövlətimizin baş memarı olan Heydər Əliyev xalqımızın yaddaşında həm də ədəbiyyatımızın ən etibarlı təəssübkeşi, mahir bilicisi və dostu kimi qalıbdır.

Azərbaycan ədəbiyyatının bütün dövrləri, bütün şəxsiyyət və hadisələri Ümummilli Liderimiz üçün eyni dərəcədə doğma və yaxın olmuş, eləcə də onların heç biri xüsusi diqqət və qayğıdan kənarda qalmamışdı. Heydər Əliyev Azərbaycan ədəbiyyatının bütün dövrlərini, bu dövrdə yaşayan ediblərin yaradıcılığını diqqətlə izləmiş, onların əsərlərini öyrənmiş və qiymətləndirmişdi. Ulu Öndərin XIX əsr və XX əsrin əvvəlində yaşayıb-yaratmış M.Ş.Vazeh, A.Bakıxanov, Q.Zakir, X.Natəvan, M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, C.Məmmədquluzadə, N.Nərimanov, H.Cavid, Ə.Haqverdiyev və başqaları haqqında söylədiyi fikirlərdə klassiklərimizə milli təəssübkeşlik hissi aydın duyulur. Dahi şəxsiyyətin ədəbi irsimizə bəslədiyi humanist münasibət bu gün də minnətdarlıq hissi ilə qeyd edilir, cəsarətlə söyləmək olar ki, gələcəkdə də qeyd olunacaqdır.

## Əsas hissə / *Main Part*

Azərbaycan ədəbiyyatını xalqımızın milli sərvəti hesab edən Heydər Əliyev xalqımızın bu mənəvi nemətdən böyük fayda gördüyünü bildirmişdir. Onun fikrincə "biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür" [7, s.92].

Azərbaycan xalqının mədəniyyətə, ədəbiyyata böyük hörmət və diqqət göstərdiklərini, bu mənəvi sərvətləri yaradan dahi şəxsiyyətlərimizi yaddaşlarına həkk etdiklərini bildirərək Heydər Əliyev 28 oktyabr 1997-ci ildə Azərbaycan ədəbiyyatının yaşlı nəslinin nümayəndələri ilə Prezident Sarayında keçirdiyi görüş zamanı demişdi: "Mən düşünürəm ki, Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə də səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram bəlkə də az yerlərdə tapılar. Bunun da kökləri var. Çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir. Ədəbiyyatımızı, mədəniyyətimizi və tariximizi zənginləşdirən dahi şəxsiyyətlərimiz də olubdur. Ona görə də xalq bu şəxsiyyətlərlə həmişə fəxr edərək, onların yaratdıqları əsərləri həmişə sevə-sevə oxuyaraq mədəniyyətə, ədəbiyyata hörməti nəinki saxlayıb, hətta artırıbdır" [6, s.378].

Heydər Əliyev Azərbaycan xalqının öz klassikləri ilə fəxr etməyə haqlı olduğunu söyləyərək gənclərə də yaradıcılıqda asan yol tutmamağı, xalq üçün lazımlı ədəbi əsərlər yazmağı tövsiyə etmişdi. O, 1997-ci il 29 oktyabrda ədəbiyyatımızın gənc nəslinin nümayəndələri ilə Prezident Sarayındakı görüşündə ağsaqqal müdrikliyi ilə bildirmişdi ki, "xalqın gələcəyi, xalqın öz tarixini, keçmişini dərk etməsi və gələcək yaşayışını qurması üçün əldə etdiyimiz dövlət müstəqilliyi, milli azadlığımız əvəzsiz bir hadisədir. Ona görə də biz bunun naminə hər bir çətinliyə dözməliyik... Ədəbiyyat, mədəniyyət həm də fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri, yüksək incəsənət əsərlərini yaradan insanlar həmişə fədakar olurlar. Onlar fitri istedadı ilə bərabər fədakar olmasalar böyük sənətkar ola bilməzlər. Siz – gənclər bunu bilirsiniz, amma daha dərindən bilməlisiniz ki, ən qədim dövrlərdən bizə gəlib çatmış, indi fəxr etdiyimiz ədəbiyyat əsər-

lərinin – Nizaminin, Nəsiminin, Füzulinin, Vaqifin, Mirzə Fətəli Axundovun yaxud digərlərinin əsərlərinin heç birisi asanlıqla yaranmayıb. Heç də hamı bilmir ki, bu əsərlərin yaranması üçün onlar nə qədər zəhmət, əziyyət çəkiblər, nə qədər fədakarlıq göstəriblər" [6, s.399].

Azərbaycan ədəbiyyatının və mədəniyyətinin görkəmli nümayəndələrinin vətənə, torpağa, xalqa, milli-azadlıq və müstəqillik ideyalarına sədaqəti Heydər Əliyevin diqqətini cəlb etmişdir. Klassiklərimizin hansı dövrdə yaşamasından asılı olmayaraq onların xalqının xoşbəxt gələcəyi uğrunda apardıqları mübarizəni Ulu Öndər minnətdarıqla xatırlamış, bu qələm sahiblərinin yaradıcılığını yüksək qiymətləndirmişdi. O, XIX əsrdə yaşamış belə fədakar ədiblər haqqında deyirdi: "Azərbaycan çar Rusiyasının tərkibində, onun əsarəti altında olarkən də ölkənin mütəfəkkir adamları, qabaqcıl siyasi xadimləri, yazıçı və şairləri olmuşdur. Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Seyid Əzim Şirvani, Üzeyir Hacıbəyov kimi şəxsiyyətlərin yaradıcılığında da milli-azadlıq hissləri öz əksini tapmışdır. Yeni siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır" [3].

Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, XIX əsrdə yaşamış "ölkənin mütəfəkkir adamları, qabaqcıl siyasi xadimləri, yazıçı və şairləri"n səyi nəticəsində Azərbaycan ədəbiyyatının inkişafı tamamilə yeni bir ideya-istiqamət almış, ədəbiyyatımız yeni dövr dünya ədəbiyyatı sisteminə daxil olmaqla qlobal ədəbi prosesə qoşulmuşdur. XIX əsr Azərbaycan ədəbiyyatının ən mühüm uğurlarından biri maarifçilik ideologiyasının yeni məna kəsb etməsi ilə bağlıdır. Belə ki, "maarifçiliyin bu yeni konsepsiyasını əsas meyar, amil kimi götürən bir sıra görkəmli Azərbaycan yazıçıları öz əsərlərində insanı onu əhatə edən mühitlə üzvi bağlılıda alıb təsvir və təqdim edir, xalqın, cəmiyyətin müxtəlif ictimai təbəqələrinin gündəlik həyatını, məişətini, adət-ənənələrini, dərd və ələmlərini, istək və arzularını, sosial və mənəvi vəziyyətini obyektiv gerçəkliyə uyğun olaraq düzgün, dərindən və hərtərəfli əks etdirirlər".

Heydər Əliyev 2001-ci il, dekabrın sonunda Azərbaycan xalqına müraciətində deyirdi: "XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar ayrı-ayrı görkəmli şəxsiyyətlərin Abbasqulu ağa Bakıxanovun və Mirzə Kazımbəy kimi nadir insanların çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapmış həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, ana dili məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi" [4].

Fikrini davam etdirən Heydər Əliyev XIX əsr Azərbaycan ədəbiyyatı və mədəniyyətində silinməz iz qoyan M.F.Axundzadənin xidmətlərini yüksək qiymətləndirmiş, onun aparmaq istədiyi əlifba islahatını təqdir etmiş, sənətkarı "uzaqgörən bir insan" kimi dəyərləndirmişdi: "XIX əsrin ortalarında Mirzə Fətəli Axundov Azərbaycanda latın əlifbasını tətbiq etməyə çalışıbdır. Onun bu barədə fəaliyyəti məlumdur. Mən onun bir neçə məktubuna baxdım, arxivdəki məktublarının bəziləri ilə tanış oldum. Bunu keçmişdə də bildirdim, amma bu son zamanlar mən onu xatırladım, hafizəmdə bir daha təzələdim. O nə qədər uzaqgörən bir insan imiş! Çünki latın əlifbasını tətbiq etmək istəmişdir" [6, s.203].

Ulu öndər Heydər Əliyev dahi mütəfəkkir, filosof, şair, Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin çoxşaxəli yaradıcılığını yüksək qiymətləndirməklə yanaşı, onu həm də ümumən Azərbaycan ictimai fikrinin ən parlaq və nadir nümayəndəsi kimi qəbul edirdi. Ulu Öndərin M.F.Axundzadə şəxsiyyətinə verdiyi yüksək qiymətin heç də təsadüfi olmadığını vurğulayan filologiya elmləri doktoru, professor Mahirə Hüseynova yazır: "İlk növbədə qeyd edək ki, həmin seminariyada (Qori Müəllimlər Seminariyası nəzərdə tutulur – R.M.) Azərbaycan şöbəsinin açılması milli fikir tariximizin müqayisə olunmaz şəxsiyyətlərindən biri, ömrünün son gününə qədər ərəb qrafikalı əlifbanı xalqın inkişafı yolunda əsas maneələrindən biri hesab edən və buna görə də əlifba islahatı uğrunda yorulmadan çalışan Azərbaycan dramaturgiyasının əsasını qoymuş, Qafqaz canişinliyində mütərcim kimi çalışan polkovnik Mirzə Fətəli Axundovun adı ilə bağlıdır. 1877-ci ildə o, belə bir şöbənin yaradılması ilə əlaqədar dəfələrlə Rusiya imperatorluğunun Qafqazdakı canişini,

böyük knyaz Mixail Nikolayeviç Romanovun yanında olur, lakin Şərq xalqları ilə bağlı mürtəce fikirləri çoxdan daşlaşmış general-qubernator hər dəfə bu xahişləri rədd edir. Növbəti dəfə eyni iltimasda bulunan Mirzə Fətəli Axundov Qafqaz canişininə təmsil etdiyi xalqın elmə və təhsilə verdiyi önəmli konkret şəxslərin timsalında izah etməyə çalışır, Peterburq Universitetinin professoru Mirzə Cəfər Topçubaşov, maarif xadimi Həsən bəy Zərdabi və Peterburq Universitetinin fəxri doktoru Mirzə Kazım bəy haqqında xüsusi məlumat verərək bildirir ki, bu böyük təkcə Rusiya Elmlər Akademiyasının mübir üzvü deyil, həm də Londonda Böyük Britaniya və İrlandiya Kral Cəmiyyətinin, Kopenhagendə Şimali Antikvarilər Kral Cəmiyyətinin üzvü seçilmişdir. Nəhayət, Qafqaz canişinin növbəti qəbullarından birində Mirzə Fətəli ilə birgə gəlmiş şəriət müəllimi Mirzə Hüseyn Qayıbzadə ondan belə bir cavab alırlar: “Siz ayrıca seminariya istəyirsiniz. Layihədə də göstərirsiniz ki, məktəb ya Tiflisdə, ya da azərbaycanlıların yaşadığı bir xristian şəhərində açılsın. Burası bir az çətinlik törədir. Bunun üçün yaşayış yeri, təhsil üçün bina, müxtəlif ləvazimatlar lazımdır. Bilirsiniz ki, indi ölkə müharibə içindədir, xərc məsələsi də bir yandan. Zənnimcə, məktəbin gürcü və ermənilər kimi hələlik Qori şəhərində açılmasına etiraz etməzsiniz” [9, s.44-45].

Məlumdur ki, 1879-cu ildə Qori Müəllimlər Seminariyasının nəzdində fəaliyyətə başlayan Azərbaycan şöbəsi mədəniyyətimizin və ədəbiyyatımızın inkişafında misilsiz xidmətləri olmuşdur. Bu şöbənin məzunları olan Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Soltan Məcid Qənizadə, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Rəşid bəy Əfəndiyev, Müslüm Maqomayev, İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlinski, Süleyman Sani Axundov, Hacıbaba Süleymanov, Nəriman Nərimanov, Osman Əfəndiyev, Fərhad Ağazadə və başqaları Qori Seminariyasını bitirdikdən sonra Azərbaycanın azadlığı uğrunda başlanan istiqlal mübarizəsində yaxından iştirak etmiş və öz sahələri üzrə töhfələrini vermişlər.

Heydər Əliyev dövrün ictimai-siyasi, ədəbi-mədəni həyatından bəhs edərkən bildirirdi ki, “XIX əsrin sonu, XX əsrin əvvəli Azərbaycan ədəbiyyatının çox böyük zəngin dövrü olubdur. Bu gün ədəbiyyatımız haqqında danışarkən biz bu dövrü çox yüksək qiymətləndirməliyik”. XIX əsrin ikinci yarısından başlayaraq Bakıda, eləcə də ölkənin bir sıra bölgələrində elm və təhsilin, ədəbiyyat və mədəniyyətin inkişafının yeni vüsət aldığını vurğulayan Heydər Əliyev deyirdi: “XIX əsrin sonu-XX əsrin əvvəlləri dünyada yeni münasibətlərin bərqərar olduğu bir dövr kimi Azərbaycan xalqının həyatının bütün sahələrində də öz təsirini göstərmişdir. Bu dövrün ictimai prosesləri iri sənaye şəhərinə çevrilmiş Bakını bütün Qafqazın iqtisadi mərkəzi etmişdir. İqtisadi inkişafla əlaqədar olaraq bu dövrdə təhsil, elm, incəsənət və ədəbiyyat sahələrində böyük canlanma başlandı. Bakı, Gəncə, Naxçıvan, Şuşa, Şəki, Salyan və s. şəhərdə yeni tipli şəhər və qəza məktəbləri açıldı. Qori Müəllimlər Seminariyasının məzunlarından olan Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyov, Həbib bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli kimi görkəmli maarifçiləri təhsildə gedən islahatlara güclü təkan verirdilər. Artıq yeni üsullu təhsil metodunun mütərəqqiliyini başa düşənlər “üsuli-cədid” məktəbləri açmağa çalışırdılar. Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsün Nəvvab, Lənkəranda Mirzə İsmayıl Qasir, İrəvanda Mirzə Kazım Əsgərzadə ənənəvi təlim və tədrisdən əl çəkərək, yeni üsulla dərs verirdilər. Bu məktəblərdə ənənəvi fənlərlə yanaşı tarix, rus dili, coğrafiya və təbiət dərsləri də tədris edilirdi. 80-ci illərdən başlayaraq “Rus-tatar məktəbi”adı ilə tanınan dördillik ibtidai məktəblər açıldı. Yeni tipli məktəblərin şəbəki genişlənirdi. 1896-cı ildə Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə yaradılan Qızlar məktəbi (seminariyası) Azərbaycan qadınlarının maariflənməsində rol oynamışdır” [4].

XIX əsrin ikinci yarısında Azərbaycanda maarifçiliyin inkişafında böyük xidmətləri olan ziyalılardan S.Ə.Şirvani, M.M.Nəvvab, M.İ.Qasir və başqalarından bəhs edən Ulu Öndər onların həm də ədəbiyyatımızın və mədəniyyətimizin yeni məna kəsb etməsi, xalqımızın milli- mədəni tərəqqisi üçün fəal mübarizə apardıqlarını bildirirdi. Belə ki, XIX əsrin ortalarında S.Ə.Şirvaninin Şamaxıda təşkil etdiyi “Beytüs-səfa” (“Saflıq evi”), Mirzə İsmayıl Qasirin Lənkəranda başçılıq etdiyi “Fövcül-füsəha” (“Gözəl danışanlar dəstəsi”), M.M.Nəvvabın rəhbərliyi ilə Qarabağda fəaliyyət göstərən “Məclisi fəramuşan” (“Unudulmuşlar məclisi”), 1864-cü ildə Qarabağda fəaliyyətə başlayan, az sonra istedadlı şairə X.Natəvanın himayəsinə keçən “Məclisi-üns” (“Dostluq məclisi”), Ordubadda

tanınmış müəllim M.T.Sidqinin rəhbərliyi ilə fəaliyyət göstərən “Əncüməni- şüəra” (“Şairlər yığıncağı”) kimi ədəbi məclislərdə yalnız şeirlər müzakirə edilmirdi, həm də təlim-tərbiyə sisteminin yenidən qurulması və doğma xalqın milli intibahı ilə bağlı mütərəqqi fikirlərə dair məsləhətləşmələr aparılırdı.

Ulu Öndərin qeyd etdiyi kimi həqiqətən də XIX əsrin ikinci yarısında, xüsusən də əsrin sonuncu onilliklərində Azərbaycanda maarifçilik ideologiyası öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, onun miqyası daha da genişlənmiş, milli-mədəni həyatın bütün sahələrinə nüfuz edərək cəmiyyətin sosial inkişafında mühüm rol oynamağa başlamışdı. Bu dövrdə “H.Zərdabi və N.Vəzirovla yanaşı, Qori, Tiflis, İrəvan gimnaziyalarında, Rusiyanın və Qərbi Avropanın bir sıra mərkəzi şəhərlərinin ali məktəblərində təhsil alan istedadlı, vətənpərvər Azərbaycan ziyalıları – Ə.Haqverdiyev, R.Əfəndiyev, S.M.Qənizadə, H.Mahmudbəyov, M.Şahtaxtlı və başqaları doğma xalqının intibahı, sosial-mədəni tərəqqisi uğrunda fəal mübarizə aparmağa başlayırlar” [1, s.280]. Bu ziyalıların yaradıcılığından aydın olur ki, onlar öz xalqının mədəni tərəqqisi uğrunda fəal mübarizə aparmış, yazdıqları bədii sənət nümunələri, dövri mətbuatda çap etdirdikləri publisist, ədəbi-tənqidi məqalələri ilə teatrın inkişafı, yeni tipli dərsliklərin yazılması və s. mədəni tədbirlərdə yaxından iştirak etmişlər.

Təhsilin, elmin, mədəniyyətin inkişafına böyük önəm verən, bu sahədə işlərin genişlənməsini zəruri hesab edən Heydər Əliyev çıxışlarında keçmişə, xüsusilə də XIX əsrdə baş verən yenilikləri yada salaraq bildirirdi ki, “maarifçilik hərəkatının genişlənməsi Azərbaycanın xarici ölkələrdə ali təhsil almağa gedənlərin sayının get-gedə artmasına gətirib çıxardı. Xaricdə ali təhsil aldıqdan sonra vətənə qayıdan ziyalılar Azərbaycanda maariflənmə meyillərini dəstəkləyən qüvvələri öz ətrafında birləşdirdilər, milli mətbuat və milli teatrın yaranması üçün zəmin yaratdılar. Bakının inkişafı, əhalinin artması, ziyalı qüvvələrin yetişməsi, informasiya məkanının genişlənməsi milli mətbuatın yaranması ehtiyatını doğurdu. Bunu ilk dərk edən görkəmli maarifçi Həsən bəy Zərdabi bu istiqamətdə məqsədyönlü iş aparırdı. 1875-ci il iyulun 22-də “Əkinçi” qəzetinin ilk nömrəsi çıxdı, bununla Azərbaycan mətbuatının bünövrəsi qoyuldu. Cəlil Məmmədquluzadənin təşəbbüsü və başçılığı ilə nəşrə başlayan “Molla Nəsrəddin” jurnalı nəinki Azərbaycanın, hətta bütün Şərqin mətbuat tarixində özünəməxsus məktəbin əsasını qoydu. Bu Azərbaycan milli mətbuatın formalaşıb öz təbii inkişaf axarına düşməsindən xəbər verirdi”. Yeri gəlmişkən, onu da xatırladaq ki, Heydər Əliyev 1994-cü il dekabr ayının 28-də indiki Respublika sarayında Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyi ilə bağlı keçirilən təntənəli gecədə sənətkarın Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixində yerini və rolunu peşəkarlıqla qiymətləndirərək demişdi: “Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda, o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəllərində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O, bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bugünkü vəziyyətdən çıxarmaqda bizə kömək edir... Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycanın mənəviyyatını, mədəniyyətini, ədəbiyyatını dünyaya nümayiş etdirən və xalqımızın nəyə qadir olduğunu göstərən böyük bir sərvətdir” [6, s.240-241].

Azərbaycan tarixi və ədəbiyyatının mahir bilicisi Heydər Əliyev qeyd edirdi ki, bütün dövrlərdə xalqımız böyük dühalar yetişdirmişdir. Bu görkəmli simaların hər birinin tariximizdə öz yeri olduğunu söyləyən Ulu Öndər tarixi şəxsiyyətlərimizin həm yaradıcılıqlarını, həm də Azərbaycan xalqı qarşısındakı xidmətlərini gənc nəsillərə tanıtmağın zəruriliyini vurğulayırdı. O, 1993-cü il 21 sentyabr tarixində Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündə demişdi: “Tariximizdə hər bir şəxsiyyətin öz yeri var. Bu fikrə bir də qayıtmaq istəyirəm ki, tarixi təhrif etmək lazım deyil. 1920-ci ildən başlayaraq müstəqillik əldə etdiyimiz vaxtadək Azərbaycan xalqı böyük bir tarixi yol keçmişdir. Bu dövrdə xalqımız yüksəlmiş, onun mentaliteti, təhsil səviyyəsi qalxmışdır. Azərbay-

canda böyük elm və mədəniyyət yaranmışdır" [6, s.186]. Heydər Əliyev nitqini davam etdirərək bu sahədə başqaları ilə yanaşı, Nəriman Nərimanovun da böyük xidmətləri olduğunu bildirərək deyirdi: "Bizdən ötrü Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmməd Əmin Rəsulzadə də böyük şəxsiyyətlərdir. Nəriman Nərimanov da. Ancaq son zamanlar Nəriman Nərimanovdan başlayaraq Azərbaycanda bütün siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə deyilən fikirlərlə heç cür razılaşmaq olmaz. Bunu deyən adamların Nəriman Nərimanov səviyyəsinə qalxmaları üçün bəlkə də on illərlə siyasi fəaliyyət göstərmələri lazımdır. Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir" [6, s.186].

Heydər Əliyev tədbir iştirakçılarının nəzərinə onu da çatdırır ki, keçən əsrin ziddiyyətli 20-ci illərində milli birliyi qorumaq üçün müstəqil demokratik respublikanın bir sıra tanınmış xadimlərini ölümün pəncəsindən Nəriman Nərimanov xilas etmişdir. Ulu Öndər deyirdi: "Amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur. Məmməd Əmin Rəsulzadəni də o qoruyub saxlamışdır. Məşhur generallar Mehmandarov və Şıxlinskini həbs etmək istəyirdilər. O zaman Nərimanov Leninə məktub yazaraq bildirmişdi ki, əvvəllər çar ordusunda, sonralar isə müstəqil dövlətin ordusunda xidmət etmiş bu adamlar dəyərli şəxsiyyətlərdir və onlardan istifadə etmək lazımdır. Bütün bunlarla mən öz fikrimi açıq demək istəyirəm: Tarixi təhrif etmək olmaz. Tarixi təhrif edənlər xalqa xəyanət edir, onu çaşdırırlar. Buna son qoymaq lazımdır" [6, s.187].

XIX əsrin ikinci yarısını Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, ictimai- siyasi, fəlsəfi və ədəbi-tənqidi fikrinin milli zəmində təşəkkülü və inkişafı mərhələsi hesab etmək olar. Bu dövrdə Azərbaycan ictimai-siyasi həyatını geniş, hərtərəfli, düzgün, real gerçəkliyə uyğun əks etdirən peşəkar milli teatr yaranmışdır. Bu teatrın yaranmasını və fəaliyyətini yüksək qiymətləndirən Heydər Əliyev deyirdi: "Həmin dövrdə mədəniyyətin ən böyük naliyyətlərindən biri də milli teatrın yaranmasıdır. Məlumdur ki, Mirzə Fətəli Axundzadənin komediyaları hələ XIX əsrin 1850-ci illərində Peterburuq və Tiflisdə tamaşaya qoyulmuşdur.1873-cü ildə Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirovla birlikdə milli Azərbaycan teatrının əsasını qoydu. Bakıda azərbaycanlı tələbələrdən ibarət aktyor truppasının köməyi ilə Mirzə Fətəli Axundovun komediyaları səhnəyə qoyuldu. İlk tamaşa "Lənkəran xanının vəziri", sonra isə "Hacı Qara" olmuşdur. Bakı tamaşasından sonra 1870-ci illərin ikinci yarısında Quba və Şəkidə Azərbaycan dilində teatr tamaşaları təşkil edildi. Diqqətəlayiq cəhətdir ki, teatr tamaşalarının verilməsində Qori Müəllimlər Seminariyasının məzunları fəal rol oynamışlar. 1879-cu ildə Şəkidə Rəşid bəy Əfəndiyev, 1882-ci ildə Şuşada Yusif bəy Məlikhaqnəzərov, 1883-cü ildə Naxçıvanda Məhəmmədtağı Sidqi teatr həvəskarlarının köməyi ilə Axundovun komediyalarından tamaşalar vermişlər" [6, s.186].

Azərbaycan Milli Dram Teatrının yaranmasını mühüm tarixi hadisə adlandıran Heydər Əliyev onun onilliklər boyu milli dramaturgiyamızın əsas təbliğat ocağı hesab edib, bu teatrın səhnəsində M.F.Axundov, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, H.Cavid və başqa klassik yazıçılarımızın, dramaturqlarının əsərlərinin mütəmadi tamaşaya qoyduğunu bildirib. 1993-cü ilin sentyabr ayında, Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündə Heydər Əliyev bu mühüm mədəniyyət ocağının illərlə uzanan təmirini hər şeydən əvvəl xalqın mənəvi sərvətinə, özlərini xalq yolunda fəda etmiş görkəmli şəxsiyyətlərin, sənət adamlarının xatirəsinə hörmətsizlik kimi qiymətləndirərək deyirdi: "1873-cü ildə Nəcəf bəy Vəzirov və başqa böyük şəxsiyyətlərimiz ilk Azərbaycan teatrını, Şərqdə ilk teatrı yaratdılar, özü də o şəraitdə, dini təzyiqin mədəniyyətimizə böyük məhdudiyyətlər qoyduğu bir vaxtda. 1973-cü ildə biz bütün dünyaya car çəkdik və böyük iftixar hissi ilə Şərqdə ilk müsəlman teatrının yüz illiyini qeyd etdik. Bu yubileyin necə təmtəraqla, hörmətlə keçirildiyi yəqin ki, xatirinizdədir. İndi o teatrı xatırlamırlar. Məgər bu, Mirzə Fətəli Axundovun, Nəcəf bəy Vəzirovun, Abbas Mirzə Şərifzadənin, Ülvi Rəcəbin, Mirzəağa Əliyevin, Sidqi Ruhullanın, Ələsgər Ələkbərovun ruhuna hörmətdirmi? Heç olmazsa, onların ruhu qarşısında məsuliyyətinizi hiss edin. Əgər Hüseyn Ərəblinski o dövrdə böyük teatr, mədəniyyət xadimi kimi fəaliyyət göstərərək bu yolda öz həyatını qurban vermişsə, indi mədəniyyət xadimləri nə üçün həyəcan təbili çalmırlar ki, mədəniyyətimiz batır, dağılır" [6, s.189]. Yeri gəlmişkən onu da vurğulayaq ki, 1993-cü ildə Heydər Əliyev

yenidən dövlətə rəhbərlik etdiyi illərdə mədəniyyət tariximizdə şərəfli iz buraxmış Azərbaycan Milli Dram Teatrı tezliklə yüksək səviyyədə təmir olunaraq mədəniyyət xadimlərinin ixtiyarına verilmişdir.

Azərbaycan teatrının yaranma tarixindən, onun inkişaf mərhələlərindən bəhs edərkən Heydər Əliyev bu mədəniyyət ocağının enişli-yoxuşlu yollarından, onun səmərəli fəaliyyəti üçün əsl vətəndaşlıq nümunəsi göstərən ziyalı və ədiblərin əziyyətlərini yüksək qiymətləndirərək demişdi: "Teatrımız yeni dünya quruculuğunda bilavasitə iştirak etməyə başlayanadək bir çox illər boyu enişli-yoxuşlu yollar getmiş, ağır sınaqlara məruz qalmış, xalqa zidd mürtəce qüvvələrə qarşı şiddətli ideoloji mübarizə aparmalı olmuşdur. Görkəmli mədəniyyət xadimləri Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov ilk dərin şırım açaraq Azərbaycan teatr sənətinin toxumunu səpmiş və onun cücərtilərini inqilabdan əvvəlki dövrün şiddətli qasırğalarından hifz edib qorumuşdular" [8, s.40]. Çıxışını davam etdirən Heydər Əliyev Azərbaycan dramaturgiyası və teatrının inkişafında böyük ədibimiz Mirzə Fətəli Axundzadənin xidmətlərini xüsusilə vurğulamış, məhz onun sayəsində teatrımızın mütərəqqi inkişaf yoluna qədəm qoyduğunu bildirmişdi: "Azərbaycan teatrının beşiyi başında dahi mütəfəkkir, materialist filosof, Azərbaycan dramaturgiyasının atası Mirzə Fətəli Axundov dayanmışdı. Mirzə Fətəli Axundovun dünyagörüşü və yaradıcılığı mütərəqqi rus ədəbiyyatının bilavasitə təsiri altında təşəkkül tapmışdır. Mirzə Fətəli Axundov A.Bestujev-Marlinskinin, A.Odoyevskinin dostu idi, rus poeziyasına bələd idi. Onun "Puşkinin ölümünə" poemasında rus mədəniyyətinə hədsiz məhəbbət və hörmət öz ifadəsini tapmışdır. Əlamətdar haldır ki, Mirzə Fətəli Axundovun ölməz komediyaları ilk dəfə müəllifin öz tərcüməsi ilə Peterburqda və Tiflisdə rus səhnəsində tamaşaya qoyulmuşdu" [8, s.40].

Mirzə Fətəli Axundzadənin əsərlərinin ana dilində ilk tamaşasının 1873-cü ilin martında Bakıda göstərildiyini, bu tamaşanın maarifçi demokrat Həsən bəy Zərdabinin öz şagirdləri Nəcəf bəy Vəzirovun və Əsgər Adıgözəlovun yaxından iştirakı ilə hazırlandığını bildirən Heydər Əliyev onun əhəmiyyəti haqqında demişdi: "Azərbaycan teatrının meydana gəlməsi Azərbaycanda mütərəqqi ictimai-siyasi fikrin bütün inkişafı gedişində hazırlanmışdır. Bu proses mürəkkəb və çətin proses idi. Demokratik ideallar varlı siniflərin və ruhanilərin şiddətli müqavimətinə rast gəlirdi. Lakin yenilik, tərəqqi özünə yol açaraq, daha çox adam şüuruna hakim olurdu. İlk tamaşa üçün "Lənkəran xanının vəziri" satirik komediyasının seçilməsi təsadüfi deyildi. Burada istibdad və özbaşınalıq ifşa edilir, öz zalımlarına məharətlə qulaqburması verən nəcib, ağıllı, gözüaçıq gənclər küt, tamahkar, nadan hakimlərə qarşı qoyulur. Bu tamaşa adamları öz hüquqları və mənafeləri uğrunda mübarizə aparmağın nəinki mümkün həm də zəruri olması fikrini aşılayırdı. Pyes və tamaşa elə bil ki, Mirzə Fətəli Axundovun belə bir fikrinin əyani təcəssümü idi: – "Zülmü dəf etmək üçün zalıma nəsihət vermək lazım deyil, bəlkə məzluma demək lazımdır ki, sənki qüvvə və bacarıqda zalımdan qat-qat artıqsan, nə üçün zülmə tab gətirib durmusan? Qəflət yuxusundan qalx və bu zalımın atasını yandır". Azərbaycan teatr lap əvvəldə realist teatr kimi təşəkkül tapmış öz banilərinin arzuları kimi "həyat məktəbi", "əxlaqı saflaşdırmaq vasitəsi" olmuşdur" [8, s.41].

Azərbaycan teatrının şərəfli tarixi fəaliyyətindən söhbət açan Heydər Əliyev böyük dramaturq Mirzə Fətəli Axundzadə ilə yanaşı onun davamçıları olan Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", Nəriman Nərimanovun "Nadanlıq" pyeslərinin qəhrəmanlarını da xatırlatmış, bu qəhrəmanlar öz qəlblərinin ən gözəl, ən nəcib hiss və duyğularını doğma yurda, başı bəlalar çəkmiş xalqa həsr etdiklərini bildirmişdi. Ədəbiyyatımızın dərin bilicisi olan Ulu Öndər haqlı olaraq qeyd edirdi ki, əsərlərin qəhrəmanları "öz müqəddəs arzularına çatmayaraq həlak olsalar da, tamaşaçıya yüksək ideallar aşılayır, xalqı mənəvi cəhətdən yüksəltmək kimi böyük bir işə xidmət etməyi" əyani şəkildə göstərə bilirlər.

Heydər Əliyev bütün dövrlərdə yaşayan sənətkarların şəxsiyyətinə və bədii irsinə qayğı ilə yanaşdığı kimi XIX əsrdə yaşayıb, yaratmış Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Nəcəf bəy Vəzirov və başqa görkəmli ədiblərin də himayədarı kimi çıxış etmiş, onların yubileylərinin keçirilməsi, adlarının əbədiləşdiril-

məsi, seçilmiş əsərlərinin çap olunması və s. məsələlərdə öz köməyini əsirgəməmiş, əlindən gələn bütün yardımları etmişdir. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadə Heydər Əliyevin yüksək qiymətləndirdiyi, xatirəsinə böyük ehtiramla yanaşdığı milli mədəniyyətimiz qarşısındakı xidmətlərini zəngin mənəvi sərvət kimi dəyərləndirdiyi klassik sənətkarlardandır. Bu barədə 2009-cu ildə çap olunmuş "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabından oxuyuruq: "70-ci illərdə (XX əsr – R.M) Azərbaycan və Gürcüstan respublikalarının rəhbərləri Heydər Əliyev və Eduard Şevardnadze arasında yaranmış səmimi qarşılıqlı münasibətlər və işgüzar əlaqələr XIX əsrdə sözün həqiqi mənasında Azərbaycan mədəniyyətinin paytaxtı olmuş Tiflisdə-Tbilisidə bu mədəniyyətin təbliği ilə bağlı bir sıra mühüm aksiyaların həyata keçirilməsinə imkan yaratdı. Həmin dövrdə respublikamızın rəhbərinin təşəbbüsü əsasında vaxtı ilə Mirzə Fətəli Axundzadənin tikdirdiyi və yaşadığı ev yenidən təmir edildi, burada gürcü və Azərbaycan xalqlarının dostluq muzeyi açıldı. Evin giriş qapısına üç dildə – Azərbaycan, gürcü və rus dillərində burada Şərqin ilk dramaturqu Azərbaycanda teatr sənətinin banisi Mirzə Fətəli Axundovun yaşayıb-yaratdığını bildirən xatirə lövhəsi vuruldu. Ədibin Tiflis Botanika bağında yerləşən məzarı abadlaşdırıldı, burada onun yeni büstü ucaldıldı. Eyni zamanda Mirzə Fətəli ilə yanaşı dəfn edilmiş müəllimi Mirzə Şəfi Vazehin məzarı üzərində də abadlıq işləri görüldü və büstü qoyuldu. Bütün bunlarla yanaşı, həmin dövrdə Heydər Əliyevin təşəbbüsü ilə XIX əsr və XX əsr Azərbaycan mədəniyyətinin Tiflis səhifələrini öyrənmək baxımından iri miqyaslı, kompleks tədqiqatlar planı hazırlandı. Lakin 1982-ci ildə onun Azərbaycandan Moskvaya getməsindən və 1987-ci ildə keçmiş SSRİ-nin siyasi rəhbərliyindən uzaqlaşdırılmasından sonra bütün bu işlər yarımçıq qaldı" [7, s.152].

Kitabda təəssüflə o da vurğulanır ki, XX əsrin son on illiyində qonşu Gürcüstanda hakimiyyətə gələn qatı millətçilər yüzillərlə burada yaşayan azərbaycanlılara, eləcə də Azərbaycan mədəniyyətinə ağır zərbələr vurmuş, onları qədim ata-baba yurdlarından çıxarmağa cəhd etmişlər. Bir sıra kəndlərin yaşayış məskənlərinin adları dəyişdirilərək gürcüləşdirilmişdi. Belə bir ağır dövrdə Tiflisdə Mirzə Fətəli Axundovun ev muzeyi dağıdılmış, xatirə lövhəsi qoparılıb atılmışdı. Böyük ədibin adını daşıyan ev muzeyi mənzilə ehtiyacı olanlar bəhanəsiylə yaşayış sahəsi kimi gürcülərə verilmişdi. Yenə də Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra bu ədalətsizliyə biganə qalmamış, öz sözünü deyərək haqq və ədaləti bərpa etməyə müvəffəq olmuşdu. Akademik Teymur Kərimli bu barədə yazır: "Hər iki respublika özlərinin ən ağır vaxtlarını keçirmələrinə baxmayaraq onların müdrik rəhbərlərinin xalqın milli-mənəvi sərvətlərinə olan sevgisi yenə qalib gəldi. Mirzə Fətəli Axundovun mənzili öz həqiqi sahiblərinə – Tiflis azərbaycanlılarına qaytarıldı. İndi burada Gürcüstan azərbaycanlılarının Mədəniyyət Mərkəzi yerləşir. Mirzə Fətəli Axundovun ruhu yenə də öz doğma ocağındadır" [7, s.152].

Heydər Əliyevin göstərişi ilə 1970-ci illərin ortalarında Azərbaycan KP MK-nın Mirzə Şəfi Vazeh irsinin öyrənilməsi, nəşri və təbliği barəsində qəbul etdiyi qərar XIX əsr Azərbaycan şeirinin bu görkəmli nümayəndəsi ilə bağlı yeni-yeni tədqiqat əsərlərinin meydana çıxmasına səbəb oldu. Tədqiqatlarda göstərilir ki, "Mirzə Şəfi Vazehin irsinin nəşri, təbliği və öyrənilməsi haqqında Heydər Əliyevin imzaladığı qərardan sonra da ədəbi dairələrdə az qala unudulmaqda olan incə ruhlu Azərbaycan şairinin yaradıcılığına yenidən diqqət daha da artdı. M.Ş.Vazehin AMEA-nın Füzuli adına Əlyazmaları İnstitutundakı cüngü aşkar olundu və tezliklə nəşr edildi. Şairin XIX əsrin 40-cı illərində tələbəsi-alman şərqşünası və şairi Fridrix Bodenşted tərəfindən Almaniyaya aparılan və əksər hissəsi mənimsənilən ədəbi irsinin taleyi məsələsinə yeni elmi-faktoloji səviyyədə bir daha diqqət yetirildi. Bu qərar yalnız Azərbaycan mirzəşəfişünaslarını deyil, onların Almaniyadakı həmkarlarını da, necə deyərlər silkələdi, həmin dövrdə bizim mətbuatda keçmiş ADR-dən (keçmiş Almaniya Demokratik Respublikası – R.M.) olan alman ədəbiyyatşünası və yazıçısı Leon Nebentsalın Mirzə Şəfi Vazeh və Bodonşted münasibətlərinə dair ağıllı, düşündürücü, elmi məntiqə söykənən yazıları çap edildi. Nəhayət, Almaniyadakı mənbələrin bir qismi Azərbaycan dilinə çevrildi və bütün bunların nəticəsində əlimizdə əsərlərin çox az bir qismi olan şairimiz haqqında təsəvvürlərimiz daha da genişləndi. Eyni zamanda Azərbaycan-Almaniya ədəbi-mədəni əlaqələrinin həmin dövrə qədər tədqiqatdan kənarda qalmış səhifələri ilə tanış olmaq imkanı qazandıq" [7, s.151].

1998-ci il aprelin 24-də Xalq şairi M.Dilbazinin 85 illik yubileyi münasibətilə Respublika (indiki Heydər Əliyev – R.M.) sarayında keçirilən təntənəli gecədəki nitqində Heydər Əliyev ədəbiyyatımızda fəxr etdiyi qadın sənətkarlarımızdan söhbət açmışdır. O, Məhsəti Gəncəvi, Ağabəyim ağa Ağabacı, Heyran xanım, Aşıq Bəsti, Xurşidbanu Natəvanın adını iftixar hissi ilə çəkərək demişdi: "Şair olmaq asan deyil. Bütün xalqların tarixində şairlər, yazıçılar və alimlər adətən kişilərdən ibarət olubdur. Ancaq qadın şairlər xüsusi hörmətə malikdirlər. Onlar gərək nə qədər yüksək istedada malik olsunlar ki, kişilərlə bərabər səviyyəyə, bəlkə də onlardan üstün səviyyəyə qalxıb öz şeirləri ilə böyük şairlər dəstəsinə qoşula bilsinlər" [8 s.174].

Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus şərəfli yer tutan qadın şairlərdən biri də Xurşidbanu Natəvan olmuşdur. Onu da qeyd etmək lazımdır ki, X.Natəvan yalnız şair deyil, həm də Azərbaycan ictimai-siyasi həyatının son dərəcə əhəmiyyətli simalarından biri idi. O, Qarabağın, Şuşanın inkişafı haqqında fikirləşən sənətkarlardan olmuşdur.

Klassik ədəbiyyatın bilicisi və himayədarı olmuş Heydər Əliyev X.Natəvanın yaradıcılığını həmişə diqqət mərkəzində saxlamış, onun dövründə şairənin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Məlumdur ki, 1982-ci ildə Ulu öndər Heydər Əliyevin iştirakı ilə Şuşada X.Natəvanın büstü ucaldılmışdır.

Azərbaycan yazıçılarının qurultayı ərəfəsində yaşlı nəsildən olan yazıçıların bir qrupu ilə görüşündə xalq şairi Mirvarid Dilbazi görkəmli Azərbaycan şairəsi X.Natəvanın şəxsiyyətinə, yaradıcılığına göstərdiyi diqqətə görə Heydər Əliyevə minnətdarlığını bildirərək demişdi: "Vaxt var idi ki, Natəvanın qəbrinin üstündən mərmər daşı çıxartmışdılar, – Siz bunu məndən yaxşı bilirsiniz, – amma sonra Siz orada gözəl bir abidə yaratdınız. Mən o abidəni görəndə elə bildim ki, Natəvan qarşıma çıxdı- qarşısında qələmi, sanki kağız çıxarıb nəsə yazacaq. Onun mərmərdən tökülmüş büstü də gözəldir. Bunların hamısı Sizin xidmətinizdir" [8, s.174].

Ümummilli lider respublikamıza rəhbərlik etdiyi illərdə Azərbaycanın klassik ədəbiyyatının görkəmli nümayəndələrinin yubileylərinin keçirilməsi ilə bağlı onlarla qərar və sərəncam imzalamışdır. Lakin Heydər Əliyevin özü də klassiklərimizi ancaq yubileydən-yubileyə yada salmağın əleyhinə olmuş, xalqımızın ölməz söz nəhənglərinə daim diqqət və qayğı göstərməyi tövsiyyə edərək deyirdi: "Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir. Bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir. Bir daha qeyd edirəm, bu yubileylərin keçirilməsində məqsəd həmin şəxslərin özlərinin yada salınmasından çox xalqın elminin, mədəniyyətinin, mənəviyyatının zənginliyini nümayiş etdirməkdir və indiki nəslə, gələcək nəsillərə onlardan daha faydalı istifadə etmək üçün imkan yaratmaqdır" [7, s.150].

Heydər Əliyev görkəmli Azərbaycan şairlərinin, yazıçılarının yubileylərinin keçirilməsini əlamətdar hadisə hesab edirdi. O, 30 oktyabr 1997-ci il tarixində keçirilən Azərbaycan yazıçılarının X qurultayında ədəbiyyatı yaşadanları minnətdarlıq hissi ilə yad etməyin əhəmiyyətindən bəhs edərək deyirdi: "Mən bu fikirlərlə XIX əsrin və XX əsrin Azərbaycan ədəbiyyatı üçün nə qədər məhsuldar olduğunu bildirmək istəyirəm. Bu gün biz burada qurultay keçirərək müasir ədəbiyyatımız haqqında danışarkən ədəbiyyat yaradanları, bu ədəbiyyatı inkişaf etdirənləri daim hörmət, ehtiram, minnətdarlıq hissi ilə yad etməliyik. Ona görə də təsadüfi deyil ki, biz Azərbaycanda yazıçıların, şairlərin yubileylərinin keçirilməsini böyük əhəmiyyətli bir hadisə hesab edirik. Bəziləri indi də buna bir az kəc baxırlar, "bu yubileylər nəyə lazımdır, indi bizim həyatımız çətindir, ağırdır", – deyirlər. Ancaq mən bu fikirlə heç vaxt razı olmamışam, bu gün də razı deyiləm. Əminəm ki, keçirilən hər bir belə yubiley bizim həyatımızda çox böyük yeni hissiyyatlar doğurur, yeni qüvvələr meydana gətirir. Biz gələcəkdə də şairlərimizin, yazıçılarımızın, mütəfəkkirlərimizin yubileylərini keçirəcək və hər bir belə yubiley xalqımıza bayram olacaqdır" [8, s.203].

Heydər Əliyev XIX əsrdə yaşayıb yaradan yazılı ədəbiyyatın görkəmli nümayəndələrindən böyük hörmət və ehtiramla söz açdığı kimi həmin dövrün aşıq şeirinin tanınmış simalarını da xüsusi qayğıkeşliklə xatırlamış, milli-mənəvi dəyərlərimizin misilsiz daşıyıcıları olan sənətkarlara – aşıqla-

ra və el şairlərinə, sinədəftər söz bilicilərinə dərin rəğbətini bildirmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü və sərəncamları ilə Aşıq Ələsgərin 150 ilik (1972-ci il) 175 illik (1996-cı il) 180 illik (2001-ci il), Aşıq Alının 180 illik (1981-ci il) yubileyləri böyük təntənə ilə qeyd olunmuşdur. “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı” kitabında ümumxalq bayram səviyyəsində keçirilmiş yubileylər haqqında deyilir: “1972-ci ildə Heydər Əliyevin qeyri-adi təşkilatçılıq bacarığı ilə həm də böyük siyasi nüfuzu sayəsində Aşıq Ələsgərin 150 illik yubiley tədbiri Bakı ilə yanaşı, Moskvada da ən yüksək səviyyədə keçirildi. İstər Bakıda, istərsə də Moskvada keçirilmiş Aşıq Ələsgərin yubileyinə keçmiş sovetlər birliyinin bütün respublikalarında ən tanınmış elm, mədəniyyət və incəsənət xadimləri toplaşmışdılar. Müxtəlif millətlərdən olan natiqlər Kreml Qurultaylar Sarayında Aşıq Ələsgərin timsalında Azərbaycan saz-söz sənətinin ecazkar qüdrətindən söz açdılar. Yubiley tədbirlərinin ittifaq miqyasındakı böyük əks-sədası o vaxt hətta erməniləri də Aşıq Ələsgərin 150 illiyini qeyd etmək məcburiyyəti qarşısında qoydu. Ermənistan SSRİ ərazisində olan Göyçə mahalında, Aşıq Ələsgərin vətəni Ağkilsə kəndində böyük sənətkarın əzəmətli qəbirüstü abidəsi ucaldıldı. Bu həmin dövrdə Heydər Əliyevin nüfuzu sayəsində əldə edilmiş parlaq bir nailiyyət idi. Qüdrətli söz ustadının poetik irsini cəmləşdirən “Aşıq Ələsgər” iki cildliyinin Elmlər Akademiyası tərəfindən hazırlanıb nəşr edilməsi, aşığın seçilmiş şeirlərinin SSRİ xalqlarının dilində tərcümə edilməsi yubileyin uğurlu nəticəsi idi [7, s.81-82].

Azərbaycan yazıçılarının VI qurultayında (26 may 1976) nitq söyləyən Heydər Əliyev bu mövzuya bir də qayıdaraq bildirmişdir ki, Azərbaycanın görkəmli ədəbiyyat və mədəniyyət nümayəndələri rus ədiblərinin mütərəqqi ideyalarından bəhrələnmişlər: “Qabaqcıl demokratik dünyagörüşlü nəcib, humanist ideyalar, yüksək vətəndaşlıq duyğuları, rus ictimai fikri, rus mədəniyyəti ədəbiyyatımıza birinci növbədə bax bunları bəxş etmişdir. Mirzə Fətəli Axundov və Abbasqulu ağa Bakıxanov Azərbaycan ədəbiyyatı tarixində prinsip etibarilə yeni görkəmli bir səhifə açmışdır. XX əsr Azərbaycan ədəbiyyatı tarixinə Sabir, Cəlil Məmmədquluzadə və demokratik “Molla Nəsrəddin” jurnalı ətrafında birləşərək rusiyanın ictimai-siyasi mədəni həyatında səmərəli təsiri altında doğulmuş, maarifçilik və demokratik ənənələri davam və inkişaf etdirən digər yazıçıların parlaq adlarını yazmışdır” [10].

Heydər Əliyev yazıçıların ümumittifaq yaradıcılıq konfransının bağlanış çıxışında (31 oktyabr 1980) Mirzə Fətəli Axundzadənin yaradıcılığından bəhs etmiş, ədibin böyük rus şairi A.S.Puşkinin ölümünə həsr etdiyi şeirini yüksək qiymətləndirmişdir: “Görkəmli mütəfəkkir, yazıçı Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundov bütün yaradıcılığı, bütün varlığı ilə böyük beynəlmiləlçi idi. XIX əsrin birinci yarısında, o zülmətli vaxtlarda Mirzə Fətəli Axundov “Puşkinin ölümünə Şərq poeması” adlı məşhur əsərini yazmış, Rusiyanı, rus xalqını, onun böyük şairini və övladlarını tərənnüm etmişdir. Məgər bu hər birimizin qəlbində iftixar hissləri coşdurmaya bilərmi? Bu elə bir bünövrədir ki, Azərbaycan xalqının səmimi dostluq hissləri beynəlmiləlliyi məhz onun üzərində təşəkkül tapıb möhkəmlənmişdir və getdikcə inkişaf edir. Puşkinin ölümündən bir neçə gün sonra Mirzə Fətəli Axundovun yazdığını xatırlayaq:

*...Ah, o dəmlər, a dostum Lomonosov deyirlər*
*Ülvi bir gözəlliklə yazıb inci şeirlər.*
*Şeiriyyət dünyasını bəzəmişsə də, lakin*
*Puşkinin quş xəyalı olmuş o yerdə sakin*
*Əgər şer mülkünü, Derjavin tutmuşsa da,*
*Puşkin cavan yaşından sahib olub bu ada.*
*Dərin, dibsiz göylərdən hakim yaranmış ona,*
*Ah, hələ Karamzinin o bilik badəsini*
*Onun ümmanları kimi dərin ifadəsini,*
*Puşkin almış əlindən içib yetirmiş sonra...*

Xalqımızın istedadlı oğlu M.F.Axundovun bu misraları indi də bizi heyran qoyur və qəlbimizdə iftixar hissləri oyadır”. Heydər Əliyevin fikrincə A.S.Puşkinin ölümü münasibətilə Mirzə Fətəli Axundov dərin həyəcan hissi ilə yazdığı “Şərq poeması” Azərbaycan-Rusiya mədəni əlaqələri salnaməsində dərin iz buraxmışdır. Mirzə Fətəli Axundov A.S.Puşkini “söz ordusunun başçısı” adlandırmışdı. Axundovun poemasının rusca tərcüməsini dərc edən “Moskovski nobleyndatel” jurnalı poemanı “Puşkinin qəbri üstünə şairin əli ilə qoyulmuş gözəl bir çiçək dəstəsi” adlandırmışdı [8, s.31].

Azərbaycanda RSFSR ədəbiyyatı incəsənəti günlərinin təntənəli açılış nitqində (3 oktyabr 1972-ci il) Heydər Əliyev S.Ə.Şirvaninin rus dilinə münasibətini yüksək qiymətləndirir, onun şeirindən gətirdiyi nümunə ilə bunu poetik tərzdə belə ifadə edir: “Azərbaycanın mədəniyyət xadimləri də böyük, qüdrətli və azad rus dilini öyrənməyin böyük əhəmiyyətini daim qeyd etmişlər. Rus dili Azərbaycanda maarif və mədəniyyətin inkişafında mühüm rol oynamışdır. Azərbaycanın maarifpərvər şairi S.Ə.Şirvani oğluna şeirlə yazdığı müraciətində bunu çox yaxşı ifadə etmişdir:

*Ey oğul, hər lisana ol rağib,*
*Xassə ol rus elminə talib.*
*Çün ona ehtiyacımız çoxdur,*
*Bilməsək dil, əlacımız yoxdur.*

İndi biz deyə bilərik ki, S.Ə.Şirvaninin və Azərbaycan mədəniyyətinin görkəmli xadimlərinin varisləri bu vəsiyyəti yerinə yetirmişlər”.

**Nəticə / *Conclusion***

Ümummilli Liderimiz Heydər Əliyev müstəqil Azərbaycan Respublikasını özünün müqəddəs Vətəni hesab edib, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərin, milli mənəviyyatın məbədi sayıb. Milli-mədəni intibahın və özünə qayıdışın baş memarı olan Ulu Öndərin nəcib əməlləri bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əminliklə söyləmək olar ki, gündən-günə inkişaf edən doğma Azərbaycanın qüdrəti artdıqca ədəbiyyatımızın, mədəniyyətimizin şöhrəti də dünyada özünəməxsus şərəfli yer tutacaqdır.

**Ədəbiyyat / *References***


1. Azərbaycan ədəbiyyatı tarixi. IV cild. – Bakı, 2011.
2. “Azərbaycan müəllimi” qəzeti, 14 aprel 2023-cü il.
3. “Azərbaycan” qəzeti, 28 may 1994-cü il.
4. “Azərbaycan” qəzeti, 30 dekabr 2000-ci il.
5. “Ədəbiyyat və incəsənət” qəzeti, 5 oktyabr 1975-ci il.
6. Əliyev, Heydər. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı, 1999.
7. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. – Bakı, 2009.
8. Heydər Əliyev və mədəniyyət, 3 cilddə. – Bakı, 2008.
9. Hüseynova, M. Missiya. – Bakı, 2019.
10. “Kommunist” qəzeti, 27 may 1976-cı il.


## Общенациональный лидер об азербайджанской литературе нового периода


**Разим Мамедов**
Доктор философии по филологии

Азербайджанский Государственный Педагогический Университет
E-mail: r_mamedli@mail.ru

**Резюме.** Нашему Общенациональному лидеру в одинаковой степени были близки и до́роги все периоды азербайджанской литературы и события, связанные с её личностями, и ничего из них не было им оставлено без должного внимания и заботы. Гейдар Алиев внимательно отслеживал все периоды азербайджанской литературы, изучив и оценив творчество литературных деятелей, живших в эти периоды. В его высказываниях о М.Ш.Вазехе, А.Бакиханове, Г.Закире, Х.Натаван, М.Ф.Ахундзаде, С.А.Ширвани, Г.Зардаби, Дж.Мамед-гулузаде, Н.Нариманове, Г.Джавиде, А.Хагвердиеве и др., живших и творивших в XIX и начале XX века, явственно ощущается чувство национального воодушевления и инициативы по отношению к нашим классикам. В статье выражена благодарность великой личности за его гуманистическую заботу о нашем литературном наследии. Заботливо относясь к литературному наследию художников, живших во всех периодах, он проявлял участливое внимание и к памяти живших и творивших в XIX веке Мирзы Фатали Ахундова, Аббасгулуага Бакиханова, Гасым бека Закира, Сеид Азима Ширвани, Хуршидбану Натаван, Наджаф бека Везирова и других знаменитых мастеров пера, не жалея сил, всевозможно помогал в проведении их юбилеев, увековечивании их имён, издании избранных произведений и других вопросах.
**Ключевые слова:** Гейдар Алиев, азербайджанская литература, общенациональный лидер, художественное наследие, азербайджанские классики